Elm:xüsusi buraxılış .- 2025.-18 noyabr (№36-37).- S.25.

# *Kaan Orhan:*

# "80 il adi bir ömür deyil, müxtəlif elmi araşdırmaların yolunda daima çalışan böyük kollektivin və elm məbədinin qürurverici tarixidir"



**Ankara Universitetinin nümayəndəsi kimi, əvvəlcə, biz, Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə dəvət edildiyimiz üçün AMEA rəhbərliyinə dərin təşəkkürümüzü bildiririk. Bu, həqiqətən də, çox mənalı bir yubiley tədbiridir. 80 il adi bir ömür deyil, bu müxtəlif elmi araşdırmaların yolunda daima çalışan, mübarizə aparan böyük bir kollektivin və elm məbədinin qürurverici tarixidir.**

Bu sözləri AMEA-nın 80 illik yubileyi münasibətilə ölkəmizdə səfərdə olan Ankara Universitetinin rektor yardımçısı, dekan, professor Kaan Orhan deyib.

Bildirib ki, Ankara Universiteti olaraq, biz həm təhsil, həm də elmi tədqiqat sahələrində AMEA institutları ilə çox güclü bağlara malikik. Azərbaycan elminin dərin kökləri və güclü elmi-tədqiqat ekosistemi var. Bu münasibətlə, həm əvvəlki, həm də gələcək əməkdaşlıqlar vasitəsilə Azərbaycan elminə daha böyük töhfə verəcəyimizə inanırıq. Eyni zamanda Azərbaycandan gələn alim dostlarımızla birlikdə bu əlaqələri daha da inkişaf etdirməyə çalışacağıq.

Azərbaycan bizim üçün doğmadır. Artıq mənim bu gözəlliklər diyarına yeddinci səfərimdir. Hazırda Ankara Universitetinin Diş həkimliyi fakültəsinin dekanıyam. Bir çox azərbaycanlı həkim dostlarımız bizim universitetin məzunlarıdır. Onların bir qismi Türkiyədə ixtisaslaşıb geri qayıdaraq burada xidmət göstərir. Buna görə də hər il həm onlarla birgə tədbirlər təşkil edirik, həm də Azərbaycana gəlmək fürsəti tapırıq. Son illər Azərbaycanın möhtəşəm qələbə nailiyyətləri bizə qürur verir, sevinc bəxş edir. İnşallah, növbəti səfərimiz rektorumuzla birlikdə Şuşaya və Xankəndinə olacaq və Qarabağ Universiteti ilə protokol imzalayaraq elmi əməkdaşlığa başlamağı planlaşdırırıq.

Bu, həqiqətən də, çox qürurverici hadisədir. Həm Azərbaycan xalqı, həm də bütün türk xalqları adından böyük sevinc hissi keçiririk. Bildiyiniz kimi, biz iki qardaş dövlətik, yəni bir millət, iki dövlətik! Bu 80 il ərzində qazanılmış elmi nailiyyətlərin arxasında dayanan alimlərin elmi məktəbinin yetirmələrinin təltif olunması sevindirici hadisədir. Türkiyədən, Ankara Universitetindən gələn alimlər olaraq bu tədbirdə iştirak edib, AMEA rəhbərliyi başda olmaqla bütün elm adamlarını bu yubiley münasibətilə bir daha təbrik edir, gələcək nailiyyətlərində uğurlar diləyirik!